# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# «Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin xidməti geyim formalarının və fərqlənmə nişanlarının təsviri və onların təchizatına dair Qaydalar»ın təsdiq edilməsi haqqında

# Qərar № 173

***Bakı şəhəri, 6 noyabr 2009-cu il***

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 20 aprel tarixli, 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası haqqında Əsasnamə»nin 8.36.13-cü bəndinə əsasən Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin xidməti geyim formalarının və fərqlənmə nişanlarının təsviri və onların təchizatına dair Qaydalar» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasın Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 noyabr 2009-cu il, № 11 (149), maddə; 934) («VneshExpertService» LLC).***

***29 mart 2010-cu il tarixli, 53 nomrəli Qərara əsasən dəyişikliklərlə («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2009-cu il 6 noyabr tarixli,*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*173 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin xidməti geyim formalarının və fərqlənmə nişanlarının təsviri və onların təchizatına dair Qaydalar

## *I. Ümumi müddəalar*

1.1. Bu Qaydalar Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin xidməti geyim formalarının, fərqlənmə nişanlarının daşınması qaydasını, xidməti geyim formalarının və fərqlənmə nişanlarının təsvirlərini və təchizat normalarını tənzimləyir.

1.2. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçiləri və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvləri xidməti geyim formalarına malikdirlər.

1.3. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin xidməti geyim formalarının və fərqlənmə nişanlarının daşınması bu Qaydalarla tənzimlənir və xidməti geyim formasına aid olan əşyalar səliqə ilə sahibi tərəfindən qüsursuz vəziyyətdə saxlanılmalıdır (2 nömrəli əlavə).

1.4. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçiləri və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvləri xidməti vəzifələrini icra etdiyi müddət ərzində qanunvericiliklə təsdiq edilmiş xidməti forma geyinməlidirlər (1 nömrəli əlavə).

1.5. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvləri üçün gündəlik və parad-çıxış xüsusi geyim formaları tərtib edilərək, ilin mövsümündən asılı olaraq yay və qış xidməti geyim formasına ayrılır. Həmçinin xidməti zərurətlə əlaqədar olaraq kombinezon, qoruyucu ayaqqabılar, dəbilqə, qoruyucu gözlüklər, əlcək, fırtına gödəkcəsi və çantadan ibarət xüsusi geyim dəstindən də istifadə edilir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

1.6. Yay və qış xidməti geyim formalarına keçid mövsümü Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, gəmiçilik müəssisələrinin, təşkilat və şirkətlərin və ya *təhsil müəssisələrinin* rəhbərliyinin əmri ilə, gəmilərdə isə kapitan tərəfindən təyin edilir.

1.7. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin müvafiq olaraq xidməti geyim formaları və fərqlənmə nişanları tutduğu vəzifələrə uyğun olaraq müəyyən edilir və müəyyən norma daxilində təchiz olunurlar (3 nömrəli əlavə).

1.8. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçiləri işə gedən və ya işdən qayıdan zaman müvafiq orqan, müəssisə, təşkilat və şirkət rəhbərinin, Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvləri isə gəmi kapitanının icazəsi ilə iş zamanı mülki geyimlərdən istifadə edə bilərlər.

1.9. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinə və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinə aşağıdakılar qadağan olunur:

- xidməti geyim forması üzərində qanunvericiliklə təsdiq olunmayan əşyaların daşınması, eyni zamanda forma ilə mülki geyimlərin qarışdırılması;
- işdən kənar vaxtda xidməti formada siyasi tədbirlərdə iştirak edilməsi;
- xidməti formanın şamil olunmayan şəxslərə geyinmək üçün verilməsi;
- forma daşıyan şəxs tərəfindən səliqəsiz, iri əşyaların və təsərrüfat çantalarının daşınması.

1.10. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinə və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinə xidməti geyim formalarının geyilməsinə aşağıdakı qayda və hallarda icazə verilir:

- yay mövsümündə bayırda, bağlı yerlərdə isə il boyunca qalstukla kitelsiz köynək (kişi və ya qadın);
- yay mövsümündə ən üstdəki düyməsi açıq olmaqla, qalstuksuz köynək (kişi və ya qadın) .

1.11. Dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin xidməti geyim formasının daşınması qaydalarına riayət edilməsinə Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının dəniz təhlükəsizliyi şöbəsinin əməkdaşları və müəssisələrin rəhbərliyi, Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin xidməti geyim formasını daşımasına isə gəmi kapitanları nəzarət edir.

1.12. Xidməti formaya aid olan əşyalar hər zaman təmizlənmiş və ütülənmiş olmalıdır. Palto, plaş, pencək (kitel), qış gödəkcəsinin və köynəyin cib üstlükləri hər zaman bayır tərəfdə olmalıdır. Qalstuk sancağı 3-cü və 4-cü düymələrin arasında köynəyə bərkidilir. Şərf palto, yarımpalto, plaş və ya qış gödəkcəsinin boyunluğu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

(şərfin üst tərəfi boğazlığın üstündən 1-2 sm-dən artıq olmamaq şərtilə). Ayaqqabı hər zaman təmizlənmiş olmalı və səliqəli bağlanmalıdır. Havanın hərarəti -10°C və aşağı olan hallarda papağın qulaqlarını açmaq olar. Papağın qulaqları açılanda onlar çənənin altında bağlanmalıdır.

## *II. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik təhsil müəssisələrinin, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin gündəlik xidməti geyim formalarının təsnifatı*

2.1. Gündəlik xidməti geyim forması qış və yay formalarından ibarətdir.

2.2. Qış forması — ali komandir heyəti üçün qaragül dərisindən isti qulaqlı papaq, qara rəngli furajka (qadınlar üçün şlyapa), gündəlik kostyum (tünd göy və ya qara rəngli pencək (kitel) və qara şalvar, qadınlar üçün yubka), uzunqol ağ rəngli köynək, qara rəngli qalstuk, qalstuk sancağı, boyunluğu xəzli sukeçirməyən qara rəngli qış gödəkcəsi, palto, plaş, sviter, ağ rəngli şərf, qara rəngli dəri əlcək, qaragül dərisindən isti qulaqlı papaq və isti içlikli qış ayaqqabısından ibarətdir.

Baş komandir və komandir heyəti üçün — qara rəngli furajka (qadınlar üçün şlyapa), gündəlik kostyum (tünd göy və ya qara rəngli pencək və qara şalvar, qadınlar üçün yubka), uzunqol ağ rəngli köynək, qara rəngli qalstuk, qara rəngli sukeçirməyən qış gödəkcəsi, palto, plaş, sviter, qara rəngli şərf, qara rəngli dəri əlcək, qış papağı və qara rəngli isti içlikli qış ayaqqabısından ibarətdir.

Sıravi heyət üçün — qara rəngli furajka (qadınlar üçün beret), gündəlik kostyum (tünd göy rəngli pencək, qara rəngli şalvar), qadınlar üçün yubka, uzunqol ağ rəngli köynək, sukeçirməyən tünd göy rəngli qış gödəkcəsi, yarımpalto, plaş, sviter, qara rəngli şərf, qara rəngli yun əlcək, qış papağı və qara rəngli isti içlikli qış ayaqqabısından ibarətdir.

2.3. Yay forması — ali, baş və orta komandir heyəti üçün üstü ağ rəngli furajka (qadınlar üçün qara rəngli şlyapa), qara rəngli demisezon gödəkcə, gündəlik kostyum (tünd göy və ya qara rəngli pencək və qara şalvar, qadınlar üçün yubka), qısaqol ağ rəngli forma köynəyi, qara rəngli qalstuk, beysbolka və qara rəngli ayaqqabıdan ibarətdir.

Sıravi heyət üçün — qara, üstü ağ rəngli furajka (qadınlar üçün qara rəngli beret) tünd göy rəngli demisezon gödəkcə, gündəlik kostyum (tünd göy rəngli pencək, qara rəngli şalvar, qadınlar üçün yubka), qısaqol ağ rəngli köynək və qara rəngli ayaqqabıdan ibarətdir.

2.4. Baş örtükləri:

Furajka — qış dəsti qara rəngli parçadan, yay dəsti isə qara, üstü ağ rəngli parçadan tikilir. Günlüyü qara rəngdədir, laklanmış və 4 tipli olur: ali komandir heyəti, baş komandir heyəti, komandir heyəti və sıravi heyət üçün. Üzərində ölçüsü 5 x 4 sm olan qızılı rəngli tikişli kokardası (palıd yarpaqları ilə çərçivələnmiş ikili kəsişən lövbər və üst tərəfdə aypara ilə 8-guşəli ulduz) və qaytanı vardır. Qaytan ali və baş komandir heyəti üçün qızılı rəngli toxunma, komandir heyəti üçün qızılı rəngli sadə qaytan, sıravi heyət üçün isə qara rəngli laklanmış plastik parçadan olur. Qaytan sarı metaldan hazırlanmış 2 düymə ilə furajkaya bərkidilir. Ali komandir heyəti üçün furajkanın günlüyü üzərində qızılı rəngdə 22 ədəd (hər tərəfdə 11 ədəd) palıd yarpaqlarını

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rəngdə güləbətin kant tikilir. Baş komandir heyəti üçün olan furajkanın günlüyünün üzərində qızılı rəngdə güləbətindən kant tikilir. Digərləri üçün günlüyünün üzərində qızılı rəngdə güləbətindən əlavə tikişlər olmur.

Ali komandir heyəti üçün ön hissəsində müvafiq kokarda bərkidilmiş qaragül dərisindən isti qulaqlı papaq verilir.

Qadınlara furajkanın əvəzinə eyni kokardaları olan dairəvi şlyapa, sıravi heyətə qara rəngli beret verilir.

2.5. Beret-qara rəngli tikişsiz yumşaq, (girdə) dairəvi formada olur. Beretin önünə müvafiq kokarda bərkidilir. Beret qadın sıravi heyətin baş örtüyüdür.

2.6. Palto — qara rəngli yun parçadandır. Üstündə iki sırada üzərində lövbərin şəklini əks etdirən qabarıq dəmirdən düzəldilmiş və kənarları halqalanmış sarı, qızılı metaldan hazırlanmış 8 böyük düymə vardır. İkibortlu, astarı yandan köklənmiş və yan tərəf üstlüyü qatlanan ciblidir. Kürəyində ortadan aşağıdan kəsiklə tamamlanan tikiş vardır. Kəmər üçün bel səviyyəsində bərkidilmiş üç kəmərcik vardır. Qolları ikili tikişli, aşağı arxa hissəsində lövbəri əks etdirən 3 ədəd kiçik düymələri vardır. Astarında iki kəsik qoltuq cibi vardır. Ali komandir heyəti üçün paltonun boyunluğunda sağ və sol tərəflərdə qızılı rəngli salpa, çiyin tikişi üzərində fərqlənmə nişanları olan poqonlar vardır. Sıravi heyət üçün çiyin tikişi üzərində fərqlənmə nişanları olan poqonlar yoxdur.

2.7. Yarımpalto — qara rəngli yarımyun parçadandır. Üstündə iki sırada üzərində lövbərin şəklini əks etdirən qabarıq dəmirdən düzəldilmiş və kənarları halqalanmış, qızılı metaldan hazırlanmış 3 ön düyməsi vardır. İkibortlu, astarı yandan köklənmiş və yan kəsik üstlüyü qatlanan ciblidir. Kürəyində ortadan aşağıda kəsiklə tamamlanan tikişi vardır. Qolları ikitikişlidir. Astarında iki kəsik qoltuq cibi vardır.

2.8. Plaş — qara rəngli parçadandır, düz siluetlidir və eyni parçadan kəməri vardır. Üstündə iki sırada üzərində lövbərin şəklini əks etdirən qabarıq dəmirdən düzəldilmiş və kənarları halqalanmış, sarı metaldan hazırlanmış 8 böyük düymə vardır. İkibortlu və yan kəsik üstlüyü qatlanan ciblidir. Astarında iki kəsik qoltuq cibi vardır. Kürəyində ortadan aşağıdan kəsiklə tamamlanan tikiş vardır. Ali komandir heyəti üçün plaşın boyunluğunda sağ və sol tərəflərdə qızılı rəngli salpa, çiyinlərində fərqlənmə nişanları olan poqonlar vardır (sıravi heyət üçün fərqlənmə nişanları nəzərdə tutulmamışdır). Qolları ikitikişlidir, aşağı arxa hissəsində lövbəri əks etdirən 3 ədəd kiçik düymə vardır.

2.9. Pencək (kitel) — qara və ya tünd göy rəngli olur, qatlanan yaxalıqlı, ətəyinədək astarlıdır, mərkəzdən 4 düymə vasitəsilə düymələnəndir. Pencəyin sinə və yanlarından üstdən tikilən düymə və klapanla bağlanan cibləri vardır. Pencəyin kürək hissəsi iki hissəyə bölünür və tikişin aşağı hissəsi kəsiklə bitir. Çiyinlərində fərqlənmə nişanları olan poqonlar vardır (sıravi heyət üçün fərqlənmə nişanları nəzərdə tutulmamışdır). Ali komandir heyəti üçün pencəyin boyunluğunda sağ və sol tərəflərdə qızılı rəngli salpa tikilmişdir. Qollarının aşağı arxa hissəsində lövbəri əks etdirən 3 ədəd kiçik düymə vardır. Qadınlar üçün pencək forması eyni olur və sol tərəfə düymələnir.

2.10. Şalvar — qara rəngli parçadan düzünə, manjetsiz tikilir. Tikilmə qurşaq-aşırma ilgəklə düymələnir. Şalvarın kəsik yan cibləri, arxadan sağ tərəfində qapaqlı kəsik cibi vardır. Şalvarın miyançası qarmaq və zəncirbəndlə bağlanılır. Qurşaqda ensiz kəmər üçün 7 halqa vardır. Şalvar dəri kəmərlə bərkidilir. Qadınlara qara rəngli parçadan tikilmiş yubka verilir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

2.11. Qış gödəkcəsi — sukeçirməyən qara (tünd göy) rəngli plaş parçadan olur. Ali komandir heyəti üçün xəz boyunluqlu, digərləri üçün adi boyunluqlu, istiləşdirilmiş astarlı, düz siluetli, təkbortlu, açılıb-bağlanan başlıqlı, düymələrlə bağlanan, plastron vasitəsilə örtülən zəncirbəndi vardır. Astarında iki kəsik qoltuq cibi vardır. Çiyin tikişi üzərində fərqlənmə nişanları olan poqonlar vardır (sıravi heyət üçün fərqlənmə nişanları nəzərdə tutulmamışdır). Yanlardan kəsik, üstlüyü qapaqlı ciblidir. Qolları ikitikişlidir və manjetləri adi düymələrlə bağlanır.

2.12. Demisezon gödəkcə — qara (tünd göy) rəngli plaş parçadan tikilir, zəncirbəndlə bağlanılır. Astarında iki kəsik qoltuq cibi vardır. Dik boyunluqludur, qolları manjet və kəsikdir, qolları üzərində lövbərin şəklini əks etdirən, qabarıq dəmirdən düzəldilmiş, kənarları halqalanmış və sarı metaldan hazırlanmış düymələrlə düymələnir. Yanlardan kəsik, üstlüyü qapaqlı ciblidir. Çiyin tikişi üzərində fərqlənmə nişanları olan poqonlar vardır (sıravi heyət üçün fərqlənmə nişanları nəzərdə tutulmamışdır).

2.13. Sviter — qara (tünd göy) rəngli yun parçadan hazırlanır. Dirsək və çiyin hissələri bərkidilmişdir. Boyunluğu V-şəkillidir. Çiyin tikişi üzərində fərqlənmə nişanları (poqon) üçün kəmərcikləri vardır (sıravi heyət üçün sviterdə çiyin tikişi üzərində fərqlənmə nişanları (poqon) üçün kəmərcikləri olmur). Döşün sol tərəfində üstlüyü qatlanan cib yerləşir.

2.14. Köynək — uzunqol və ya qısaqol olmaqla, ağ rəngdədir. Qatlanan boyunluqludur. Bortu ortadan düymələnir. Çiyinlərində fərqlənmə nişanları üçün kəmərcikləri, döş cibi vardır. Qolları manjetli və kəsikdir. Bortlar və manjetlər adi ağ düymələrlə düymələnir.

2.15. Qalstuk — qara rəngli, iti ucla tamamlanan ipək parçadan tikilir.

2.16. Ayaqqabı (yarımboğaz ayaqqabı) — qara rəngli dəridən hazırlanır, üstü yumşaq, tənzimləyici rezini (bağları, zəncirbəndi) vardır. Altlığı göndəndir. Qış ayaqqabısı istiləşdirilmişdir.

2.17. Şərf — ağ və ya qara rəngli trikotaj, yun və ya ipək parçadan hazırlanır. Ölçüləri 140 x 30 sm-dir.

### *III. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik təhsil müəssisələrinin, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin parad-çıxış xidməti geyim formalarının təsnifatı*

3.1. Yay parad-çıxış xidməti geyim forması qara rəngli (Ali komandir heyəti üçün üstü ağ rəngli) furajkadan (qadınlar üçün eyni rəngli şlyapa və ya beret), qara və ya tünd göy rəngli (Ali komandir heyəti üçün ağ rəngli) pencəkdən, qara rəngli şalvardan (qadınlar üçün yubka), qara rəngli ayaqqabıdan, uzunqol ağ rəngli köynəkdən, qara rəngli qalstukdan ibarətdir. Qış parad-çıxış xidməti geyim forması isə Ali komandir heyəti üçün qaragül dəridən isti qulaqlı papaqdan və ya qara rəngli furajkadan, digərləri üçün qara rəngli furajkadan (qadınlar üçün şlyapa, beret), paltodan, qara və ya tünd göy rəngli pencəkdən, qara şalvardan (qadınlar üçün yubka), uzunqol ağ rəngli köynəkdən, qara rəngli qalstukdan, qara rəngli şərfdən (Ali komandir heyəti üçün ağ rəngli), qara rəngli dəri əlcəkdən (sıravi heyət üçün yun əlcək) və qara rəngli ayaqqabıdan (qadınlar üçün uzunboğaz çəkmə) ibarətdir (1 nömrəli əlavə).

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

3.2. Furajka — qış parad-çıxış xidməti geyim forması dəsti üçün qara rəngli parçadan, yay parad-çıxış xidməti geyim forması dəsti üçün üstü ağ rəngli parçadan tikilir. Yay və qış parad-çıxış xidməti geyim formasında sıravi heyət üçün furajka hər iki halda qara rəngli parçadan hazırlanır.

3.3. Pencək — qatlanan yaxalıqlı, ətəyinədək astarlıdır. İkibortludur (sıravi heyət üçün birbortludur), arxası bütövdür, hər iki tərəfində düz yerləşdirilmiş üstlüyü qatlanan yan cibləri, üzərində lövbərin şəklini əks etdirən qabarıq dəmirdən düzəldilmiş və kənarları halqalanmış sarı, qızılı metaldan hazırlanmış 8 böyük düymə vardır. Sol döşündə kəsik cibi, qollarında fərqlənmə nişanları, astarında isə iki kəsik qoltuq cibi vardır. Ali komandir heyəti üçün pencəyin boyunluğunda sağ və sol tərəflərdə qızılı rəngli salpa tikilmişdir. Qollarının aşağı arxa hissəsində lövbəri əks etdirən 3 ədəd kiçik düymə vardır. Qadınlar üçün pencək forması eyni olur və sol tərəfə düymələnir.

3.4. Şalvar — kostyum üçün müəyyənləşdirilmiş parçadan düzünə, manjetsiz tikilir. Tikilmə qurşaq-aşırma ilgəklə düymələnir. Şalvarın kəsik yan cibləri, arxadan sağ tərəfində qapaqlı kəsik cibi vardır. Şalvarın miyançası qarmaq və zəncirbəndlə bağlanılır. Qurşaqda ensiz kəmər üçün 7 halqa vardır. Şalvar dəri kəmərlə bərkidilir. Qadınlara kostyum üçün müəyyənləşdirilmiş parçadan tikilmiş yubka verilir.

3.5. Ayaqqabı — üstü yumşaqdır və dəridən hazırlanır. Altlığı göndəndir. Qadınlar müvafiq olaraq tufli və ya uzunboğaz çəkmədən istifadə edirlər.

## *IV. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik təhsil müəssisələrinin, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin geyim əşyalarının və fərqlənmə nişanlarının təsnifatı*

4.1. Qolüstü və çiyinüstü nişanlar (poqon) — fərqlənmə nişanları qızılı rəngli lentlərdən düzəldilir. Qolüstü və çiyinüstü nişanlarda lentlərin eni: enli — 30 mm, orta — 13 mm və nazik — 6 mm ölçülərdə olur. Fərqlənmə nişanlarının hazırlanması zamanı qolüstü və çiyinüstü lentlərin aralarında 3 mm ara buraxılır. Qolüstü nişanlarda üst nahiyədə yerləşən lentin ortasında və çiyinüstü nişanlarda poqon düyməsindən sonra orta enli lentdən diametri 5-6 sm olan rombşəkilli ilgək hazırlanır. Çiyinüstü fərqlənmə nişanı (poqon) qara rəngli parçadan hazırlanaraq paltarın çiyni üzərində yerləşir və nazik güləbətin lent orta güləbətin lentin üzərində, orta güləbətin lent isə enli güləbətin lentin üzərində, aralarında 3 mm məsafə buraxılmaqla tikilir. Qolüstü fərqlənmə nişanı pencəyin (kitelin) qolunun aşağı qatlanmasından 9,5 sm məsafədə tikilir. Çiyinüstü fərqlənmə nişanlarının ölçüləri: uzunluğu — 14 sm, eni — 6 sm olur. Sıravi heyət üçün xidməti geyim formasında fərqlənmə nişanları olmur.

4.2. Salpa — Ali komandir (14-12 kateqoriya) heyətinin xidməti geyim formasının paltosunun, plaşının, pencəyinin (kitelinin) boğazlığının künclərində 7 ədəd palıd yarpağını əks etdirən qızılı rəngli, qoşa güləbətin sapdan salpalar tikilir.

4.3. Kokarda — qızılı rəngdə tikilir. Kokardanın fonu qara rəngli, yuvarlaq şəkildə olur. Üzərində qızılı güləbətin sapdan sünbüllərlə çərçivələnmiş ikili kəsişən lövbər və üst tərəfdə aypara ilə 8-guşəli ulduz tikilir. Kokardanın ölçüsü — 5 x 4 sm-dir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

4.4. Furajkanın günlüyü — 4 tipli olur: Ali komandir heyəti; baş komandir heyəti; orta komandir heyəti və sıravi heyət üçün. Orta komandir və sıravi heyət üçün günlüyün üzərində qızılı rəngdə güləbətindən kant olmur.

Ali komandir heyəti üçün olan furajkanın günlüyünün üzərində qızılı rəngdə 22 ədəd (hər tərəfdə 11 ədəd) palıd yarpaqlarını əks etdirən salpa və qızılı rəngdə güləbətin kant tikilir. Baş komandir heyəti üçün olan furajkanın günlüyünün üzərində qızılı rəngdə güləbətindən kant tikilir.

4.5. Düymələr — üzərində lövbərin qabarıq şəklini əks etdirən qızılı rəngdə dəmirdən düzəldilir. Düymələrin kənarları halqalıdır. Düymələr ikitipli olur — ön düymələrin diametri 22 mm, cibüstü, qolüstü və poqon düymələrinin isə — 14 mm-dir. Furajkaya bərkidilən yan düymələr qolüstü və poqon düymələri ilə eyni ölçüdədir.

4.6. Uzaq səfərlər kapitanının döşüstü nişanı — metal qabarıq lövbər ətrafında lövbər zənciri ilə dairəvi, oval şəkildə haşiyələndirilir. Lövbər və lövbər zənciri qara rəngli, oksidləşdirilmiş olur. Nişanın ortasında üstdən vurulmuş qızılı rəngli tunc sekstan yerləşir. Nişan aypara və səkkizguşəli ulduzla taclandırılır. Nişanın hündürlüyü — 50 mm, eni — 36 mm, sekstanın diametri — 18 mm, emblemin diametri isə 8 mm-dir. Paltara birləşdirilməsi üçün nişanın arxa hissəsində ştift yerləşir. Bu nişan xidməti formanın sağ tərəfində daşınır.

4.7. Birinci dərəcəli mexanikin döş nişanı — qabarıq metal lövbər zənciri ilə oval şəkildə haşiyələndirilir. Lövbər qara rəngli, oksidləşdirilmiş olur. Nişanın ortasında üstdən vurulmuş qızılı rəngli üçpərli tunc vint yerləşir. Nişan aypara və səkkizguşəli ulduzla taclandırılır. Nişanın hündürlüyü — 50 mm, eni — 35 mm, vintin diametri — 18 mm, emblemin diametri isə 8 mm-dir. Pencək üzərinə bərkidilməsi üçün nişanın arxa hissəsində ştift yerləşir. Bu nişan xidməti formanın sağ tərəfində daşınır.

4.8. Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının dəniz təhlükəsizliyi şöbəsinin işçilərinin döş nişanının aşağı hissəsi qövsvari düzbucaqlı formasındadır. Nişanın hündürlüyü — 60 mm, eni — 40 mm-dir. Nişanın içərisində yuxarı hissədə sarı qızılı metal fonunda, hündürlüyü 3 mm olmaqla, qara hərflərlə «Dəniz Müfəttişliyi» sözləri Azərbaycan və ingilis dillərində öz əksini tapır. Nişanın mərkəzində Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının göy fonda səkkizguşəli loqotipi yerləşir. Aşağı qövs hissəsində isə sarı metal fonunda, qara rəqəmlərlə hündürlüyü 5 mm olmaqla, işçinin identifikasiya nömrəsi (məs: 005-01) yerləşir. Nişanın geyim formasının yaxasına bərkitmək üçün yuxarı hissəsində düymə yeri olan dəridən nazik kəmərciyi vardır.

4.9. «Donanmanın Fəxri İşçisi» döş nişanı. Onun üstündə Azərbaycan Respublikası bayrağı, altında isə lövbərlə bağlanmış yarımdairənin içində «Donanmanın Fəxri İşçisi» sözləri yazılmışdır. Döş nişanının fonunda yer kürəsi əks etdirilmiş və sərnişin gəmisinin təsviri verilmişdir.

---

*«Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik təhsil müəssisələrinin, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin xidməti geyim formalarının və fərqlənmə nişanlarının təsviri və onların təchizatına dair Qaydalar»a*
***1 nömrəli əlavə***

# Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin xidməti geyim formalarının və döş nişanlarının təsviri

**1. Kişilər üçün palto**



**2. Qadınlar üçün palto**



**3. Kişilər üçün plaş**



**4. Qadınlar üçün plaş**



**5. Kişilər üçün qış parad-çıxış xidməti geyim forması**

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional





6. **Qadınlar üçün qış parad-çıxış xidməti geyim forması**





7. **Kişilər üçün yay parad-çıxış xidməti geyim forması**

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional




**8. Qadınlar üçün yay parad-çıxış xidməti geyim forması**




**9. Kişilər üçün qış gündəlik xidməti geyim forması**

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional





10. Qadınlar üçün qış gündəlik xidməti geyim forması





11. Kişilər üçün yay gündəlik xidməti geyim forması

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional





**12. Qadınlar üçün yay gündəlik xidməti geyim forması**





**13. Kişilər və qadınlar üçün baş örtükləri**



**Qış furajkası**



**Yay furajkası**



**Şlyapa**



**Ali komanda heyətinin**



**Baş komanda heyətinin furajka**



**K**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**furajka günlüyü** **günlüyü** **günlüyü**





**Sıravi heyəti furajka günlüyü** **Beysbolka**





**Beret** **Kokarda**

## 14. Döş nişanları və düymələr





**Uzaq səfərlər kapitanı** **1-ci dərəcəli mexanik**





**Dəniz Müfəttişliyinin döş nişanı** **Fəxri dənizçi nişanı**





**Salpa** **Düymələr**



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*təhsil müəssisələrinin, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin xidməti geyim formalarının və fərqlənmə nişanlarının təsviri və onların təchizatına dair Qaydalar»a*
***2 nömrəli əlavə***

# Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının işçilərinin xidməti geyim formalarının üzərində olan fərqlənmə nişanlarının təsviri

| Kateqoriya | Vəzifə | Qolüstü tikişlər | Salpa | Poqon |
|---|---|---|---|---|
| 14 | Dövlət Dəniz Administrasiyasının rəisi |  |  |  |
| 13 | Dövlət Dəniz Administrasiyası rəisinin müavini |  |  |  |
| 12 | Dövlət Dəniz Administrasiyasının şöbə müdiri |  |  |  |
| 11 | Dövlət Dəniz Administrasiyasının sektor müdiri |  | yoxdur |  |
| 10 | Dövlət Dəniz Administrasiyasının baş məsləhətçisi |  | yoxdur |  |

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

| | | | | |
|---|---|---|---|---|
| 8 | Dövlət Dəniz Administrasiyasının böyük məsləhətçisi |  | yoxdur |  |
| 7 | Dövlət Dəniz Administrasiyasının aparıcı məsləhətçisi |  | yoxdur |  |
| 6 | Dövlət Dəniz Administrasiyasının məsləhətçisi, baş mütəxəssisi, böyük mütəxəssisi, mütəxəssisi |  | yoxdur |  |

**Qeyd.** Gəmi kapitanı mülkiyyət növündən asılı olmayaraq, müəssisəyə, təşkilata, şirkətə, habelə dəniz administrasiyasına işə qəbul edildikdən sonra əvvəl tutduğu vəzifəyə müvafiq xidməti geyimini və fərqlənmə nişanlarını gəzdirmək hüququna malikdir.

---

# Azərbaycan Respublikasının gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin, dənizçilik təhsil müəssisələrinin, Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin xidməti geyim formalarının üzərində olan fərqlənmə nişanlarının təsviri

| Kateqoriya | Vəzifə | Qolüstü tikişlər | Salpa | Poqon |
|---|---|---|---|---|
| 13 | Gəmiçilik və donanma rəisləri<br><br>Beynəlxalq Dəniz Ticarət Limanının rəisi |  |  |  |

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

| | | | | |
|---|---|---|---|---|
| 12 | Gəmiçilik və donanma rəislərinin müavinləri və baş mühəndisləri<br><br>Beynəlxalq Dəniz Ticarət Limanının kapitanı və rəis müavini<br><br>Ali dəniz təhsil müəssisəsinin rektoru | | | |
| 11 | Gəmiçilik və donanma tərkibində olan xidmət və idarə rəisləri<br><br>Ali dəniz təhsil müəssisəsinin prorektoru<br><br>Beynəlxalq Dəniz Ticarət Limanının baş mühəndisi və liman kapitanının müavini<br><br>Liman məntəqəsinin rəisi | | yoxdur | |
| 10 | Gəmiçilik və donanmanın tərkibində olan xidmət və idarə rəisinin müavini, baş mühəndis, şöbə müdiri, baş dispetçer, baş şturman, baş texnoloq<br><br>Liman məntəqəsi rəisinin müavini<br><br>Dənizçilik məktəbləri və xüsusi təlim-*təhsil müəssisələrinin* rəhbərləri<br><br>Ali dəniz təhsil müəssisəsində təhsil və elmi tədqiqat şöbəsinin müdiri, fakültə dekanı, kafedra müdiri, kafedra professoru | | yoxdur | |
| 9 | Gəmiçilik və donanmada təlimatçı-kapitan<br><br>Gəmiçilik və donanma tərkibində olan idarədə baş şturman, təlimatçı-kapitan<br><br>Liman məntəqəsinin kapitanı və baş bələdçisi<br><br>Sərnişin, quru yük və maye qaz daşıyan gəmilərin, tankerlərin, dəmiryol və sərnişin bərələrinin, buzqıran, tədris və yedək gəmilərinin kapitanları<br><br>Dibdərinləşdirən gəmilərin kapitan — bagermeysteri | | yoxdur | |
| 8 | Gəmiçilik və donanmanın xidmət və şöbə rəislərinin müavinləri, elektroradionaviqasiya bazasının rəisi<br><br>Beynəlxalq Dəniz Ticarət Limanında şöbə rəisi, liman tərkibində olan yardımçı donanmanın, yük sahəsinin, dəniz | | yoxdur | |

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

| | | | | |
|---|---|---|---|---|
| | vağzalının rəisi, rəisin təhlükəsizlik texnikası üzrə köməkçisi, baş dispetçer, rabitə xidmətinin, yük və sərnişin şöbələrinin rəisləri, liman nəzarəti müfəttişi və liman nəzarətinin növbə rəisi<br><br>Liman məntəqəsinin kapitanının müavini, baş mühəndisi və dəniz vağzalının rəisi<br><br>Gəmiçilik və donanmanın tərkibində olan idarənin xidmət rəisi, şöbə müdiri, baş mütəxəssisi, təlimatçısı, baş dispetçeri, mühəndisi<br><br>Ali dəniz təhsil müəssisəsinin fakültə dekanının müavini, kadrlar şöbəsinin müdiri, istehsalat təcrübəsinin və təlim mərkəzinin rəisi, tədris emalatxanasının müdiri, baş müəllim, aspirantura müdiri və elmi katib<br><br>Dənizçilik məktəbində və xüsusi təlim-tədris müəssisələrində rəis müavini və ixtisas üzrə şöbənin müdiri<br><br>Dokmeyster | | | |
| 7 | Gəmiçilik və donanmada sektor müdiri, baş deviator, inspektor, qrup dispetçeri, qrup mühəndisi, baş dispetçer, sərnişin xidməti şöbəsinin mühəndisi, kadrlar üzrə baş müfəttiş, texniki şöbənin mühəndisi, təhlükəsizlik texnikası üzrə baş mühəndis, radiomərkəzin rəisi<br><br>Beynəlxalq Dəniz Ticarət Limanının şöbə rəisinin, liman tərkibində olan yardımçı donanma rəisinin, yük sahəsi rəisinin, dəniz vağzalı rəisinin və rabitə xidməti rəisinin müavinləri, təhlükəsizlik texnikası üzrə mühəndisi və dispetçeri<br><br>Liman məntəqəsinin şöbə rəisi, təhlükəsizlik texnikası üzrə rəisin köməkçisi, baş dispetçeri, liman tərkibində olan yardımçı donanma rəisinin müavini, rabitə xidmətinin müdiri, yük sahəsinin və dəniz vağzalının rəisi, baş bələdçisi, dispetçeri, təhlükəsizlik texnikası üzrə mühəndisi, liman nəzarəti müfəttişi və dəniz vağzalı rəisinin müavini<br><br>Gəmiçilik və donanmanın tərkibində olan |  | yoxdur |  |

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

| | | | | |
|---|---|---|---|---|
| | idarənin xidmət və şöbə rəislərinin müavini, baş deviatoru, qrup mühəndisi, baş mühəndis-dispetçeri, gəmi təsərrüfatı xidmətinin mühəndisi, dəniz inspektoru, təhlükəsizlik texnikası üzrə mühəndisi, kadrlar üzrə inspektoru və təlimatçı-mexaniki<br><br>Ali dəniz təhsil müəssisəsinin müəllimi və tədris ustası<br><br>Dənizçilik məktəbində və xüsusi təlim-tədris müəssisələrində emalatxana rəisi, istehsalat təcrübəsinin rəisi, ixtisas üzrə şöbə müdirinin müavini və baş müəllim<br><br>Sərnişin, quru yük və maye qaz daşıyan gəmilərin, tankerlərin, dəmiryol və sərnişin bərələrinin, buzqıran, tədris və yedək gəmilərinin baş mexaniki, kapitanın baş köməkçisi və kapitanın təhsil üzrə köməkçisi<br><br>Dibdərinləşdirən gəmilərdə bagermeysterin baş köməkçisi, kapitanın baş köməkçisi və baş mexanik<br><br>Dokun baş mexaniki və dokmeysterin birinci müavini | | | |
| 6 | Gəmiçiliyin və donanmanın dispetçeri, kadrlar üzrə inspektoru, təhlükəsizlik texnikası üzrə mühəndisi, deviatoru, radiomərkəzin rəis müavini və baş mühəndisi<br><br>Liman məntəqəsinin dispetçeri, təhlükəsizlik texnikası üzrə mühəndisi, bələdçisi<br><br>Gəmiçiliyin və donanmanın tərkibində olan idarənin elektroradionaviqasiya bazasının rəisi, təhlükəsizlik texnikası üzrə mühəndisi, deviatoru, donanma üzrə mühəndis-dispetçeri, kadrlar üzrə inspektoru, baş mühəndis-operatoru<br><br>Sərnişin, quru yük və maye qaz daşıyan gəmilərin, tankerlərin, dəmiryol və sərnişin bərələrinin, buzqıran, tədris və yedək gəmilərində kapitanın 2-ci köməkçisi, kapitanın sərnişin üzrə köməkçisi, 2-ci mexanik, elektrik-mexanik, mühəndis- | | yoxdur | |

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

| | | | | |
|---|---|---|---|---|
| | elektronaviqator, radiostansiya rəisi<br><br>Limandaxili yardımçı gəmilərin və kran-gəmilərin kapitanı və kapitan kranmeysteri<br><br>Dibdərinləşdirən gəmilərdə bagermeysterin 2-ci köməkçisi, kapitanın 2-ci köməkçisi, 2-ci mexanik və elektromexanik<br><br>Üzən təmizləyici stansiyalarda stansiya rəisi<br><br>Dokmeysterin növbətçi köməkçisi və dokda baş elektromexanik<br><br>Gəmiçilik və donanmanın növbətçi dispetçeri, dispetçer xidmətinin baş operatoru, bilet kassasının rəisi və baş kassiri<br><br>Liman məntəqəsinin dispetçeri, dəniz vağzalının növbətçisi<br><br>Gəmiçilik və donanmanın tərkibində olan idarənin dispetçeri, donanma hərəkəti üzrə dispetçer xidmətinin baş operatoru, növbətçi dispetçeri | | | |
| 5 | Ali dəniz təhsil müəssisəsində təcrübə üzrə təlimatçı<br><br>Dənizçilik məktəbləri və xüsusi təlim-tədris müəssisələrində kadrlar şöbəsinin müdiri, müəllim və istehsalat təcrübəsinin ustası<br><br>Sərnişin, quru yük və maye qaz daşıyan gəmilərin, tankerlərin, dəmiryol və sərnişin bərələrinin, buzqıran, tədris və yedək gəmilərində kapitanın 3-cü köməkçisi, 3-cü mexanik, 2-ci elektromexanik, soyuducu avadanlıqlar üzrə mexanik, radiooperator, sərnişin xidmətinin administratoru, kapitanın yanğın təhlükəsizliyi üzrə köməkçisi və kranmeyster<br><br>Limandaxili yardımçı gəmilərdə və kran gəmilərində kapitanın baş köməkçisi, baş mexanik, kapitan — kranmeysterin növbətçi köməkçisi və<br><br>elektromexanik<br><br>Dibdərinləşdirən gəmilərdə bagermeysterin | | yoxdur | |

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

| | | | | |
|---|---|---|---|---|
| | 3-cü köməkçisi, kapitanın 3-cü köməkçisi, 3-cü mexanik, 2-ci və 3-cü elektromexanik və radiostansiya rəisi<br><br>Üzən təmizləyici stansiyalarda stansiya rəisinin növbətçi köməkçisi, mühəndis-texnoloq və baş mexanik<br><br>Dokun növbətçi mexaniki və dokda növbətçi elektromexanik | | | |
| 4 | Gəmiçilik və donanmanın kassirləri, məlumat bürosunun növbətçisi<br><br>Ali dəniz təhsil müəssisəsində, dənizçilik məktəblərində və xüsusi təlim-tədris müəssisələrində laborant və komendant<br><br>Sərnişin, quru yük və maye qaz daşıyan gəmilərin, tankerlərin, dəmiryol və sərnişin bərələrinin, buzqıran, tədris və yedək gəmilərində kapitanın 4-cü köməkçisi, kapitanın 5-ci köməkçisi, kapitanın təsərrüfat üzrə köməkçisi, 4-cü mexanik, 2-ci elektromexanik, 3-cü elektromexanik, təmir üzrə mexanik, kran üzrə mexanik, sistem mexaniki, bosman<br><br>Limandaxili yardımçı gəmilərdə və kran gəmilərində kapitanın 2-ci köməkçisi, kapitanın növbətçi köməkçisi, radiostansiya rəisi, 2-ci mexanik, elektromexanik, 2-ci elektromexanik, kapitanın 3-cü köməkçisi, 3-cü mexanik, 3-cü və 4-cü elektromexanik<br><br>Dibdərinləşdirən gəmilərdə bagermeysterin 4-cü köməkçisi, kapitanın 4-cü köməkçisi, 4-cü mexanik, 4-cü elektromexanik, radiooperator və bosman<br><br>Üzən təmizləyici stansiyalarda növbətçi mexanik, elektromexanik, texnik-laborant və bosman, dokda bosman | | yoxdur | |

**Qeyd.** Gəmi kapitanı mülkiyyət növündən asılı olmayaraq, müəssisəyə, təşkilata, şirkətə, habelə dəniz administrasiyasına işə qəbul edildikdən sonra əvvəl tutduğu vəzifəyə müvafiq xidməti geyimini və fərqlənmə nişanlarını gəzdirmək hüququna malikdir.

*«Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının dənizçilik təhsil ı*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin xidməti geyim formalarının və fərqlənmə nişanlarının təsviri və onların təchizatına dair Qaydalar»a*

***3 nömrəli əlavə***

# Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, dənizçilik *təhsil müəssisələrinin*, gəmiçilik sahəsində fəaliyyət göstərən və donanmaya malik olan müəssisə, təşkilat və şirkətlərin işçilərinin və Azərbaycan Respublikası bayrağı altında üzən mülki gəmilərin heyət üzvlərinin xidməti geyim formalarının və fərqlənmə nişanlarının təchizat normaları

| Sıra №-si | Əşyanın adı | Bir nəfərə düşən əşyanın norması | İstifadə müddəti |
|---|---|---|---|
| **I. Geyim** | | | |
| 1. | Gündəlik qara rəngli furajka | 1 ədəd | 2 il |
| 2. | Ağ rəngli parad-çıxış furajkası | 1 ədəd | 3 il |
| 3. | Qara rəngli qaragül dəridən isti qulaqlı papaq, qış papağı | 1 ədəd | 5 il |
| 4. | Şlyapa, beret (qadınlar üçün) | 1 ədəd | 3 il |
| 5. | Qara rəngli qış paltosu | 1 ədəd | 5 il |
| 6. | Qara rəngli yarımpalto | 1 ədəd | |
| 7. | Qara rəngli plaş | 1 ədəd | 3 il |
| 8. | Qara (tünd göy) rəngli qış gödəkcəsi | 1 ədəd | 2 il |
| 9. | Qara rəngli dəri əlcək | 1 cüt | 5 il |
| 10. | Qara rəngli yun əlcək | 1 cüt | 5 il |
| 11. | Qara (tünd göy) rəngli gündəlik pencək (kitel) və şalvar, qadınlar üçün yubka | 1 ədəd | 2 il |
| 12. | Parad-çıxış kostyumu (ağ rəngli pencək və qara rəngli şalvar; qadınlar üçün yubka) | 1 ədəd | 2 il |
| 13. | Qara rəngli (tünd göy) demisezon gödəkcə | 1 ədəd | 2 il |
| 14. | Qara və ya tünd göy rəngli sviter | 1 ədəd | 3 il |
| 15. | Beysbolka (qadınlar üçün beret) | 1 ədəd | 2 il |
| 16. | Qara rəngli dəri kəmər | 1 ədəd | 5 il |
| 17. | Qara rəngli yun şərf | 1 ədəd | 5 il |
| 18. | Ağ rəngli ipək və qara rəngli trikotaj şərflər | 2 ədəd | 2 il |

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

| | | | |
|---|---|---|---|
| **II. Ayaqqabılar** | | | |
| 19. | Qara rəngli uzunboğaz qış ayaqqabısı | 1 cüt | 3 il |
| 20. | Qara rəngli qış ayaqqabısı | 1 cüt | 1 il |
| 21. | Qara rəngli yay tuflisi | 1 cüt | 2 il |
| **III. Dəyişək paltarlar** | | | |
| 22. | Ağ rəngli uzunqol köynək | 3 ədəd | 2 il |
| 23. | Ağ rəngli qısaqol forma köynəyi | 3 ədəd | 2 il |
| 24. | Qara rəngli qalstuk | 2 ədəd | 2 il |
| 25. | Qara rəngli iplik corab | 4 ədəd | 1 il |
| **IV. Xüsusi geyim dəstinə əlavə əşyalar** | | | |
| 26. | Qalstuk sancağı | 1 ədəd | 5 il |
| 27. | Poqonlar | 2 ədəd | 3 il |
| 28. | Kokarda | 2 ədəd | 15 il |
| **V. Xüsusi geyim dəsti** | | | |
| 29. | Kombinezon | 2 ədəd | 2 il |
| 30. | Qoruyucu ayaqqabılar | 2 cüt | 2 il |
| 31. | Kaska (dəbilqə) | 1 ədəd | 3 il |
| 32. | Qoruyucu gözlüklər | 1 ədəd | 2 il |
| 33. | Əlcək | 2 cüt | 1 il |
| 34. | Fırtına gödəkcəsi | 1 ədəd | 3 il |
| 35. | Çanta | 1 ədəd | 5 il |

**Qeyd.** Dənizçiyə istəyinə uyğun olaraq uzunboğaz qış ayaqqabısı əvəzinə qara rəngli qış ayaqqabısı verilə bilər.

---

© *«VneshExpertService» LLC*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional